

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti** *1933-cü ildən nəşr olunur*

№ 76-77
(73013-7314) Çərşənbə axşamı, 27 oktyabr 2015-ci il  Qəzet ayda 4 dəfə çıxır  Qiyməti 40 qəpik


## *Azərbaycan vətəndaşlarının rifahı Prezident İlham Əliyevin bütün fəaliyyətinin əsasını təşkil edir*

Bu gün dünyada baş verən siyasi kataklizmlər ciddi narahatçılıq yaratmaqda davam edir. Dərin iqtisadi böhran dövrünü yaşayan Avropa ölkələri həm də tarixin ən böyük humanitar fəlakəti - "miqrant böhranı" ilə üz-üzə qalıblar. Müxtəlif rəngli inqilablar adı altında Afrika, Yaxın və Orta Şərq, postsovet məkanında qeyri-sabit vəziyyətə, dağılmış iqtisadiyyata səbəb olan Avropa hazırda həmin ölkələrin miqrant ordusunun sərhədlərinə doğru irəliləməsinə qarşı ciddi tədbirlər görür.



Bu narahatedici amillərə baxmayaraq Azərbaycan Respublikası hazırda beynəlxalq aləmdə iqtisadi möcüzələr ölkəsi kimi tanınır və nüfuz qazanır. Prezident İlham Əliyevin səyi ilə qısa müddət ərzində Azərbaycan dünyanın dinamik inkişaf edən dövlətləri sırasına çıxaraq, keçid iqtisadiyyatını arxada qoymağa nail olmuşdur. Müstəqil Azərbaycanın son 10 ildə Prezident İlham Əliyevin rəhbərliyi altında ciddi uğurlara imza atması, iqtisadi inkişaf tempi ilə dünyada lider mövqelərini qoruyub saxlaması da məhz dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış mükəmməl mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Bu dövrün reallıqları həm də onu təsdiqləmişdir ki, bu gün Azərbaycan cəmiyyətinin siyasi illüziyalara deyil, real nəticələrə ehtiyacı var, həmçinin ictimai rəy siyasi vədlərə deyil, faktlara qiymət verir.

Prezident İlham Əliyevin son 10 ildə ölkəyə rəhbərliyinin ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu var. Ölkə iqtidarının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də məhz milli müstəqilliyin praktik olaraq gerçəkləşdirilməsini təmin etmişdir.

Son 10 ilin statistik göstəricilərinə nəzər saldıqda isə böyük fərqi açıq-aydın görmüş olarıq. Son 10 ildə ümumi daxili məhsul (ÜDM) 4,7 dəfə, adambaşına düşən ÜDM isə 2 dəfədən çox artmışdır. 1 milyon 400 min yeni iş yeri açılmış, orta aylıq əməkhaqqının miqdarı 3,6 dəfədən çox artmış, yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizə düşmüş, işsizliyin səviyyəsi 4,9 faizə enmişdir.

**(Ardı 2-ci səhifədə).**

## *Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında*

***Azərbaycan Respublikası Prezidentinin Fərmanı***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gömrük-buraxılış məntəqələrində gömrük-keçid qaydalarının sadələşdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan ümumi gömrük dəyəri 10000 ABŞ dolları ekvivalenti məbləğindən (müşayiət edilən hər bir yetkinlik yaşına çatmamış fiziki şəxsə görə əlavə 2000 ABŞ dolları ekvivalenti məbləğindən) artıq olmayan mallar (aksizli mallar, avtonəqliyyat vasitələri və səfər zamanı fiziki şəxsin zəruri ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan əşyalar istisna olmaqla) gömrük ödənişi ödənilmədən gömrük sərhədindən keçirilir.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 396 nömrəli Fərmanının 3.1-ci və 3.2-ci bəndlərinə uyğun olaraq, gətirilməsi və aparılması qadağan edilən və məhdudlaşdırılan əşyaların siyahısının dövlət sərhədinin buraxılış məntəqələrində hər kəsin yaxşı görə biləcəyi lövhələrdə yerləşdirildiyinə dair məlumatı bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 22 oktyabr 2015-ci il.*

## *Prezident İlham Əliyevin Fərmanı ilə bütün lisenziyalar "ASAN xidmət" mərkəzlərində veriləcək*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının yekunlarına dair iclasındakı çıxışında sahibkarlıq sahəsində yoxlamalardan çoxsaylı şikayətlərin daxil olmasını, yoxlamaların, eləcə də lisenziyaların sayının həddindən artıq çox olmasını, göstərilən sahədə sui-istifadə hallarını qeyd edib, belə halların qarşısının alınacağını, nəticə çıxarmayanların cəzalandırılacağını bildirib.

AZƏRTAC bildirir ki, verilən tapşırıqlara uyğun olaraq, 2015-ci il oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi göndərilib. Qanun layihəsinə əsasən 2015-ci il noyabrın 1-dən etibarən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılır.

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Fərmanla lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı bütün lisenziyaların İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsi nəzərdə tutulub.

Fərmanın mətni 20 oktyabr 2015-ci il tarixli sayında dərc olunmuşdur.